UOT 342

# İNVESTİSİYA FƏALİYYƏTİNİN KONSTİTUSİON HÜQUQİ TƏMİNATLARI

**F.M.MƏHƏRRƏMOV**
***Bakı Dövlət Universtiteti***
***Fuadmikailoglu@yahoo.com***

*Dövlətlə iqtisadiyyat arasında olan bağlılıq qarşılıqlı əlaqə və qarşılıqlı fəaliyyət əsasında mövcüddür. Bildiyimiz kimi, hüquq cəmiyyət həyatının müxtəlif sahələrinə, dövlət və cəmiyyət və iqtisadiyyata təsir gostərir. Digər tərəfdən hüquq ünsürlərin kompleks şəklində yaranmış, fəaliyyət göstərir, iqtisadiyyat isə yalnız onlardan biridir. İqtisadi və hüquqi əlaqələr qarşılıqlıdır. İqtisadi münasibətlər öz qanunları ilə inkişaf edir və hüquq normaları ilə tənzimlənir. Buna baxmayaraq öz iqtisadi dəyərlərini itirmədən hüquqla birbaşa əlaqədə olur.*

*İqtisadi sistemin konstitusion hüquqi əlaqəsi bir çox faktorlara səbəb olur: cəmiyyətin milli mədəni irsi, konstitusion məqsədlər, tarixi təcrubə iqtisadiyyatın model və strukturu.*

**Açar sözlər:** investisiya, siyasət, dövlət, konstitusiya, iqtisadiyyat

İnvestisiya fəaliyyətinin ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, dövlət təminatı sanki investisiya fəaliyyətini işə salan bir mexanzmidir. Dövlətin məqsədi, insan və vətəndaşların hüquq və azadlıqları, hakimiyyət orqanlarının səlahiyyətləri və bir çox iqtisadi dəyərlərə verilən təminatlar dövlətin investisiya siyasətinin tərkib hissələridir. Bu təminatların əksəriyyəti konstitusion prinsiplərə əsaslandığı üçün investisiya siyasəti ilə konstitusion prinsiplərin müqayisəli şəkildə təhlil olunması zərurəti vardır. İnvestisiya siyasətini icra edən zaman dövlətin investisiya təminatlarının konstitusion əsasları ən mühüm məsələlərdən biridir.

İnvestisiya təminatlarından mülkiyyətə verilən təminat bütün investorları maraqlandıran ən mühüm məsələdir. Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsində dövlət mülkiyyətə yüksək təminat verir və maddədə belə qeyd olunur: «Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz» (1).

Qanunverici orqan müəyyən edir ki, Azərbaycan Respublikasının qanunlarının müəyyən etdiyi qaydalarda və müqavilə öhdəliklərindən irəli gələn

şərtlər daxilində mülkiyyətçi əmlaka sərbəst şəkildə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər, həmin əmlaka başqa şəxslərin sahibliyinə yol verməyə bilər, ona mənsub barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər, bir şərtlə ki, bu hərəkətlər üçüncü şəxslərin hüquqlarını pozmasın. Mülkiyyət hüquq münasibətləri əsasən 1999-cu il tarixli Mülki Məcəllə ilə tənzimlənir. Mülkiyyət hüququ 3 əsas hüquqdan ibarətdir: sahiblik hüququ, istifadə hüququ və sərəncam hüququ. Konstitusiyanın 29-cu maddəsi müəyyən edir ki, hər kəsin mülkiyyət hüququ və dövlət mülkiyyətin heç bir növünə üstünlük vermir. Mülkiyyət hüququ subyektin ona mənsub olan əmlaka və əşyaya öz iradəsinə əsasən sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam hüququndan ibarətdir. Sahiblik hüququ əmlaka olan faktiki sahibliyi həyata keçirməyin hüquqi formasıdır. İstifadə hüququ əmlakdan və ya əşyadan onun faydalı təbii xassələrini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır. İstifadədən fayda gəlir, artım və bəhər formasında ola bilər. Sərəncam hüququ isə əmlakın hüquqi müqəddaratını müəyyən etməyin vasitəsidir. Mülkiyyətçi Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir. İnvestisiya qanunvericiliyi isə müəyyən edir ki, investorun qərarı ilə investisiyaya və onun nəticələrinə sahiblik, istifadə və sərəncam hüquqları qanunla müəyyənləşdirilmiş qaydada digər fiziki və hüquqi şəxslərə verilə bilər. Hüquqların bu cür verilməsi zamanı yaranan qarşılıqlı münasibətləri onlar müstəqil surətdə müqavilə əsasında nizama salırlar. Bu isə investisiya siyasəti zamanı mülkiyyət münasibətlərinin məhz konstitusion prinsiplərə əsaslandığını bir daha sübut edir. Mülki Məcəlləyə müvafiq olaraq mülkiyyətçi Azərbaycan Respublikasının qanunvericiliyi və ya müqavilə məhdudiyyətləri nəzərə alınmaqla əmlaka sərbəst surətdə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər və ona mənsub olan əmlaka dair öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər. Bütün növlərdən olan daşınar və daşınmaz əmlaka mülkiyyət hüququnun subyektləri hüquqi və fiziki şəxslər, bələdiyyələr və Azərbaycan Respublikası ola bilər. «İnvestisiya fəaliyyəti haqqında» qanuna görə dövlət və bələdiyyə mülkiyyətinin, habelə başa çatdırılmamış tikinti obyektlərinin özəlləşdirilməsində investorlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş şərtlərlə və qaydada iştirak edə bilərlər. Konstitusiyamızın 29-cu maddəsinin 4-cü hissəsində isə qeyd olunur ki, dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər. Lakin nə Konstitusiyada, nə də digər normativ aktarda dövlət ehtiyaclarının anlayışı verilmir. Onu da qeyd etmək lazımdr ki, 18 mart 2009-cu il tarixli referenduma qədər dövlət ehtiyacları ilə yanaşı «ictimai ehtiyaclar» anlayışından da istifadə olunurdu.

Dövlətin mülkiyyət sahəsində verdiyi ən mühüm təminatlardan da biri odur ki, mülkiyyətçinin mülkiyyət hüququnun tanınmasını tələb etmək ixtiyarı

vardır. Bu ən mühüm təminatlardan biridir. Mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən öz əmlakını geri tələb edə bilər. Əmlak onu özgəninkiləşdirməyə hüququ olmayan şəxsdən əvəzsiz əldə edildikdə, mülkiyyətçi əmlakı bütün hallarda tələb edə bilər.

Konstitusiyanın 29-cu maddəsində qeyd olunur ki, mülkiyyətin heç bir növünə üstünlük verilmir. Bütün növlərdən olan həm daşınar, həm də daşınmaz əmlaka mülkiyyət hüququnun subyektləri hüquqi və fiziki şəxslər, bələdiyyələr və Azərbaycan Respublikası ola bilər. Azərbaycan Respublika-sının qanunvericiliyin uyğun olaraq fiziki və hüquqi şəxslərə mənsub ola bilməyən əmlakın ayrı-ayrı növləri istisna olmaqla fiziki və hüquqi şəxslərin mülkiyyətində istənilən əmlak ola bilər. Mülkiyyətə verilən ən mühüm təminatlardan biri isə vərəsəlik hüququnun qorunmAsıdır. Konstitusiyanın 29-cu maddəsində xüsusilə qeyd olunur ki: «Dövlət vərəsəlik hüququna təminat verir».

1999-cu il 28 dekabr tarixli Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 10-cu bölməsi ilə vərəsəlik hüququna təminat nəzərdə tutulmuşdur. Ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə, yaxud hər iki əsasla keçir. Qanun üzrə vərəsəlik o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır.

Mülkiyyət investisiya münasibətlərinin birbaşa obyekti olduğu üçün mülkiyyətə olan konstitusion təminatlar ən mühüm hüquqi vasitədir.

Digər konstitusion təminatlardan biri azad sahibkarlıq fəaliyyəti ilə bağlıdır. Konstitusiyanın 15-ci maddənin II hissəsi belə qeyd olunur: «Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilmir». Bu maddə birbaşa olaraq Azərbaycan Respublikasının iqtisadi əsaslarını və əsas xüsusiyyətlərini göstərir. İlkin olaraq onu qeyd etmək lazımdır ki, hələ 1991-ci il 25 may tarixdə «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Bu qanun qəbul olunan zaman qarşıya qoyulan əsas məqsəd Azərbaycan xalqının rifahının yüksəldilməsi və suveren dövlət kimi Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin məzmununun, məqsədinin və əsas prinsiplərinin müəyyən edilməsi idi. Bu qanun vasitəsilə ilk dəfə olaraq Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin məzmunu, məqsədi və əsas prinsipləri göstərilirdi. Bu sənədin hüquqi və siyasi əhəmiyyəti ondan ibarət idi ki, öz hüquqi qüvvəsinə görə 1978-ci il Azərbaycan SSR Konstitusiyası ilə bərabər tutulmaqla, orada Azərbaycanın siyasi müstəqilliyinin iqtisadi əsasları müəyyən edilmişdir. Həmin qanunun 1-ci maddəsində qeyd olunmuşdu: «Azərbaycan Respublikası müstəqil surətdə öz əhalisinin mənafeyinə uyğun gələn, beynəlxalq hüquqla və ümumbəşəri dəyərlərlə uzlaşan iqtisadi və sosial siyasət həyata keçirir. Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi ondan ibarətdir ki, müstəqil

surətdə xalq təsərrüfatının strukturu, onun inkişafının üstün istiqamətləri müəyyənləşdirilir, maliyyə-büdcə, pul-kredit, qiymət, investisiya siyasəti, elmi-texniki və xarici iqtisadi siyasət həyata keçirilir, əhali üçün sosial təminat yaradılır. Buradan aydın görünür ki, investisiya siyasəti hələ 1991-ci ildə xüsusi vurğulanırdı. Azərbaycan Respublikasının iqtisadi müstəqilliyində məqsəd hər bir vətəndaşın layiqli həyat şəraitini, şəxsiyyətin mənəvi tələbatının ödənilməsini və özünümüdafiəsini təmin etmək, yaradıcı və məhsuldar əməyə ruhlandıran sabit mexanizmlər yaradılması yolu ilə Azərbaycan xalqının milli sərvətini qoruyub saxlamaqdır və artırmaqdır.

Sahibkarlıq fəaliyyətinin hüquqi tənzimi həmçinin «Sahibkarlıq fəaliyyəti haqqında» 1992-ci il 15 dekabr tarixli Azərbaycan RespublikAsının qanunu ilə müəyyən edilir. Bu qanun Azərbaycan Respublikasında sahibkarlıq prinsiplərini, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarını və vəzifələrini, onun dövlət tərəfindən müdafiə olunmasının forma və metodları, sahibkarların dövlət orqanları ilə qarşılıqlı münasibətlərini müəyyənləşdirir. Qanun mülkiyyətin bütün formalarının bərabərliyi prinsipinin həyata keçirilməsi, müstəqil olaraq fəaliyyət sahələri seçilməsi və iqtisadi qərarlar qəbul edilməsi əsasında iqtisadi təşəbbüsün və işgüzarlığın geniş təzahür etməsi üçün şərait yaradılmasına yönəldilmişdir.

Qeyd etmək lazımdır ki, sahibkarlıq fəaliyyəti mühüm iqtisadi və hüquqi anlayışdır və sahibkarlıq fəaliyyəti fiziki şəxslərin, onların birlikdə və ya ayrılıqda, mənfəət və gəlir əldə etmək məqsədilə özlərinin təşəbbüsü ilə qanunla qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil bir fəaliyyətdir. Qanunvericilik müəyyən edir ki, fəaliyyət qabiliyyəti olan Azərbaycan Respublikasının hər bir vətəndaşı, mülkiyyət formasından və statusundan fərqli olmayan bütün hüquqi şəxslər, həmçinin xarici ölkə vətəndaşları və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin fəaliyyətinə nəzarəti həyata keçirən dövlət orqanlarının məhz sahibkarlıqla məşğul olması qanunevriciliklə qadağan olunur.

Qanunvericiliyin ən əsas məqsədi demokratik və ədalət prinsiplərinin qorunması vasitəsilə azad sahibkarlığa bərabər şərtlər yaratsın. İnvestisiya siyasətinin konstitusion hüquqi əsaslarından danışarkən mütləq qaydada Konstitusiyanın 25-ci maddəsinə müraciət etmək lazımdır. «İnvestisiya fəaliyyəti haqqında» qanunun preambula hissəsində göstərilir ki, qanun investisiyanın Azərbaycan Respublikası iqtisadiyyatına intensiv cəlb olunmasına, ondan ölkənin sosial-iqtisadi bazasının, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli istifadə edilməsinə yönəldilmişdir və mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. Bu həmçinin dövlət tərəfindən verilmiş təminat formasıdır (2, 122).

Həmçinin Azərbaycan Respublikasının investisiya siyasətinin ən mühüm

şərtlərindən biri məhz budur: Azərbaycan Respublikası ərazisində mülkiyyət formasından və təsərrüfat fəaliyyətinin növündən asılı olmayaraq investisiya fəaliyyətinin bütün subyektləri investisiya fəaliyyətinin həyata keçirilməsi sahəsində bərabər hüquqlara malikdirlər.

Bərabərlik hüququna dair Konstitusiyaya 18 mart 2009-cu il tarixli referendum vasitəsilə də əlavələr olmuşdur. Belə ki, 25-ci maddəyə 4 və 5-ci bəndlər əlavə olunmuşdur. Referendumun nəticəsinə müvafiq olaraq bu bəndlər ümumxalq səsverməsindən sonra bu variantda qəbul olunmuşdur:

- Heç kəsə bu maddənin III hissəsində göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməs indən imtina oluna blməz;
- Hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir.

Azad sahibkarlıq fəaliyyətinə təminat verən ən mühüm hüquqi normalardan biri məhz haqsız rəqabətin qadağan olunmasıdır. «Antiinhisar fəaliyyəti haqqında» Qanun inhisarçılıq fəaliyyətinin qarşısının alınmasının, məhdudlaşdırılmasının və aradan qaldırılmasının təşkilati hüquqi əsaslarını müəyyən edir. Qanunla icra hakimiyyətinin bu sahədə fəaliyyət hüdudları müəyyən edilir.

«Haqsız rəqabət haqqında» Qanun isə haqsız rəqabətin qarşısının alınmasının və aradan qaldırılmasının təşkilati-hüquqi formalarını və əsaslarını müəyyən edir, sahibkarlıq fəaliyyətinin ədalətli üsullarla aparılmasına hüquqi zəmin yaradır, bazar subyektlərinin haqsız rəqabət metodlarının istifadəyə görə məsuliyyətini nəzərdə tutur. Qanun Azərbaycan Respublikasnda fəaliyyət göstərən bütün bazar subyektlərinə şamil olunur.

Rəqabət bazar subyektləri arasında sahibkarlıq fəaliyyətinin ən əlverişli şərtləri uğrunda mübarizənin elə hüquqi formasıdır ki, bu zaman onların müstəqil fəaliyyəti hər birinin bazarda əmtəə dövriyyəsinin ümumi vəziyyətinə təsir etmək imkanını əsaslı surətdə məhdudlaşdırır və istehlakçıya lazım olan əmtəələrin istehsalını stimullaşdırır.

Haqsız rəqabət bazar subyektinin sahibkarlıq fəaliyyətində mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəlmiş, bununla da digər bazar subyektlərinə zərər vura bilən, yaxud onların işgüzarlıq nüfuzuna xələl yetirə bilən hərəkətlərdir (2, 217).

İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi konstitusion prinsip olaraq dövlət tərəfindən təmin olunur.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 8-ci maddəsində qeyd olunur: «Hər bir insan Konstitusiyanın, yaxud qanunun ona verdiyi əsas hüquqların pozulması hallarında bu hüquqların səlahiyyətli milli məhkəmələr tərəfindən bərpa edilməsi hüququna malikdir».

Məhkəmələrlə bağlı olan bu təminat birbaşa olaraq Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsində də təsbit olunmuşdur. Bu maddəyə müvafiq olaraq vətəndaşların həm Konstitusiya ilə təsbit edilmiş hüquqlarının

və azadlıqlarının, həm də Azərbaycan Respublikasının qanunlarında və digər normativ hüquqi aktlarında nəzərdə tutulmuş hüquqlarının və azadlıqlarının məhkəmələrin müdafiəsi altında olduğuna təminat verir.

İnvestisiya sahəsində olan hüquqların müdafiəsi də investisiya sahəsində olan təminatlara aiddir. Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının aşağıdakı formaları vardır:

- İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının məhkəmə müdafiəsi;
- İnsan və vətəndaşların hüquqlarının və azadlıqlarının inzibati-hüquqi müdafiəsi.

Konstistusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının təsbit edilməsi həmin hüquqlarının və azadlıqlarının həyata keçirilməsi üçün ilk növbədə dövlət tərəfindən maddi və digər təminatların müəyyən edilməsi zərurətini yaradır.

Dövlət investisiya fəaliyyətinin həyata keçirilməsi şərtlərinin sabitliyinə, onun subyektlərinin hüquqlarının və qanuni mənafelərinin qorunmasına təminat verir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının respublika ərazisində birbaşa qüvvədə olması və bütün dövlət orqanlarının fəaliyyətində onla rın rəhbər tutulması hüquq təminatının bariz nümunəsidir.

İnvestisiya fəaliyyətinin subyektləri arasında bağlanmış müqavilənin şərtləri bu müqavilənin bütün müddəti ərzində və hətta, o, bağlandıqdan sonra qanunvericiliklə subyektlərin vəziyyətini pisləşdirən və ya hüquqlarını məhdudlaşdıran şərtlər müəyyən edildikdə belə, əgər onlar müqavilə şərtlərinin dəyişdirilməsi barədə razılığa gəlməyiblərsə, qüvvəsini saxlayır.

İnvestisiya fəaliyyəti sahəsində olan təminatlardan biri də dövlət orqanları və onların vəzifəli şəxsləri qanunvericiliklə yol verilən və onların səlahiyyətinə daxil olan hallardan başqa, investisiya fəaliyyəti subyektlərinin işinə qarışa bilməməsidir.

Qanunla müəyyənləşdirilən hallardan başqa, investisiya qoyulan obyektlərin seçilməsində investorların hüquqları məhdudlaşdırıla bilməz.

Dövlət orqanları və başqa orqanlar investorların və investisiya fəaliyyətinin digər subyektlərinin hüquqlarını pozan aktlar qəbul etdikdə investisiya fəaliyyəti subyektlərinə dəyən zərəri bu orqanlar tam həcmdə ödəməlidirlər. Zərərin ödənilməsi barədə mübahisələrə aidiyyəti üzrə məhkəmə baxır.

Dövlət mülkiyyət formasından asılı olmayaraq bütün investisiyaların, o cümlədən xarici investisiyanın qorunmasına təminat verir.

İnvestisiyanın qorunması Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi, habelə başqa dövlətlərlə bağladığı müqavilələrlə təmin edilir. İnvestorlar, o cümlədən xarici investorlar investisiyanı idarə, istifadə və ona xitam verməyə maneçilik törədə bilən ayrı-seçkilik xarakterli tədbirləri istisna edən, habelə qoyulmuş sərvətlərin və investisiyanın nəticələrinin respublikadan aparılması şərtləri və qaydasını müəyyənləşdirən bərabər hüquqi rejimlə təmin olunurlar.

Konstitusiyanın 25-ci maddəsi müəyyən edir ki, dövlət irqindən, milliy-

yətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. Bu bir daha onu bərqərar edir ki. Azərbaycan dövlətçiliyinin ən mühüm üstünlüklərindən biri cəmiyyətdə məhz bərabərliyin təmin olunmasıdır. Azərbaycan Respublikasının sonrakı qanunvericiliyi investisiya qoyuluşu şəraitini pisləşdirdikdə investisiya fəaliyyətinə dair bağlanmış müqavilədə nəzərdə tutulan müddətdə investisiyanın qoyulduğu zaman qüvvədə olmuş qanunvericilik tətbiq edilir (1).

Azərbaycan Respublikası ərazisində investisiya əvəzsiz milliləşdirilmir, rekvizisiya edilmir və onlara nəticələrinə görə digər oxşar tədbirlər tətbiq olunmur. Belə tədbirlər investorlara vurulmuş zərərin, o cümlədən itirdikləri faydanın əvəzi tam həcmdə real dəyər üzrə ödənilməklə yalnız Azərbaycan Respublikasının qanunvericilik aktları əsasında həyata keçirilə bilər. Zərərin ödənilməsi qaydası həmin qanunvericiliklə müəyyənləşdirilir.

İnvestorların qoyduğu və ya əldə etdiyi məqsədli bank əmanətləri, səhmlər və digər qiymətli kağızlar, əldə edilmiş əmlak və ya icarə hüquqları üçün ödənişlərin əvəzi Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun olaraq alındıqda, investorların öz hərəkətləri və ya onların iştirakı ilə edilmiş hərəkətlər nəticəsində istifadə olunan və ya itirilən məbləğlər istisna edilməklə, investorlara qaytarılır.

İnvestisiya fəaliyyətinin konstitusion hüquqi aspektlərini iki istiqamətdə müqayisəli təhlil etmək lazımdır. Bunlardan birincisi, subyektiv mənada investisiya fəaliyyəti iştirakçılarının konstituson hüquqi statusları və onların investisiya sahəsində konstitusion hüquqlarıdır. İkincisi, investisiya siyasətini həyata keçirən dövlət orqanlarının investisiya fəaliyyət aspektindən konstitusion hüquq və vəzifələridir.

Subyektiv mənada investisiya fəaliyyəti iştirakçılarının konstituson hüquqi statusları və onların investisiya sahələrində konstitusion hüquqlarına qismən də olsa əvvəlki paraqraflarda toxunulmuşdur. İlkin olaraq investisiya siyasəti zamanı sosial dəyərlərin qorunması və inkişafı dövlətin ən mühüm vəzifələrindən biridir. Artıq araşdırmalardan məlum olduğu kimi investisiya siyasəti dedikdə, investisiya qoyuluşlarının əsas istiqamətlərini iqtisadiyyatın aparıcı sahələrində cəmləşdirilməsi üzrə kompleks tədbirləri müəyyən edən təsərrüfat qərarlarının məcmusu başa düşülür. İnvestisiya vasitəsi ilə respublikanın makro-mikro iqtisadiyyatının yüksək inkişafına nail olunur. Eyni zamanda iqtisadiyyatın tarazlığı, onun səmərəliliyinin yüksəldilməsi və milli gəlirin artımı təmin edir. Bu səbəbdən də xarici investisiyaların cəlb edilməsi investısiya siyasətində baş verəcək ciddi keyfiyyət dəyişikliklərinin aparılmasını tələb edir. Buna görə də respublikada həm investisiya qoyuluşlarının həyata keçirilməsinin ümumi qanunlarının, həm də xarici investisiyaların cəlb edil-

məsi məsələlərinin həlli bazar münasibətləri şəraitində mühüm zərurətə çevrilir.

Müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsinin mühüm atributlarından biri də dövlətin sosial siyasətidir. Dövlətin sosial siyasəti isə əsasən əhalinin sosial müdafiəsi üzərində qurulur ki, onun da əsas istiqaməti əhalinin sosial müdafiəsini təmin etmək, dövlət təminatı vasitəsilə əhalinin həyat səviyyəsindəki gərginlik meyllərinin aradan qaldırılmasından ibarətdir. «İnvestisiya fəaliyyəti haqqında» qanuna nəzər salsaq görərik ki, investisiyaya anlayış verərkən qanunverici orqan investisiyanın məqsədi kimi məhz sosial səmərənin əldə olunmasını göstərmişdir. Ölkə iqtısadiyyatında baş verən dəyişikliklərə tam uyğun olaraq sosial infrastrukturun tənzimlənməsində dövlətin rolu və funksiyası daha da genişlənməkdədir. Belə ki, bazar iqtisadiyyatına keçid respublıkamızda sosial infrastrukturun sahələrinin səmərəli inkişafına geniş imkanlar yaratmışdır. Deməli, respublikanın hər bir konkret regionunda əhalinin sosial müdafiəsi real vəziyyətdən asılı olaraq düzgün müəyyənləşdirilməlidir. Belə ki, respublikada sosial infrastrukturun formalaşdırılması və inkişafı dövlətin apardığı sosial siyasətə tam uyğun olaraq tənzimlənməlidir. Sosial sferada qəbul olunmuş və geniş investisiya imkanları yaradan ən mühüm sənədlərdən biri 11 fevral 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq olunmuş «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramıdır (2004-2008-ci illər)». Bu proqramda sosial iqtisadi sferanın və regionların bərabər inkişafı üçün mümkün tədbirlər nəzərə alınmışdır və Proqram uğurla başa çatdırılmışdır. Fərmanda Proqramın qəbul olunması səbəblərindən biri kimi qeyd olunur: «Bu gün özünün sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş Azərbaycan Respublikasında həlli vacib məsələlərdən biri regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə, oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artırılmasına və ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmaqdan ibarətdir. Bu istiqamətlərdə tədbirlərin həyata keçirilməsi regionların iqtisadi inkişafında mövcud olan kəskin fərqin aradan qaldırılmasını və regional tarazlığın əldə olunmasını təmin etməklə yanaşı onların iqtisadi gücünü artırır və sosial problemlərin həllini sürətləndirir».

Müasir bazar iqtisadiyyatı şəraitində, bütövlükdə respublikada, o cümlədən, onun regionlarında sosial infratsrukturun formalaşması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, keçmiş ittifaq dağıldıqdan sonra Azərbaycan Respublikasının özünəməxsus sosial-iqtisadi problemləri meydana çıxmaqla, onun həlli də mühüm vəzifə kimi dövlətin qarşısında durur. Əgər keçmiş ittifaq dövründə sosial-iqtisadi inkişaf problemləri mərkəzləşdirilmiş qaydada, vahid reseptlə həll edilirdisə, indiki müstəqillik və bazar iqtisadiyyatı şəraitində bu ümumi problemlər ərazi xüsusiyyətlərinə, milli ənənələrə uyğun olaraq həll edilir. Ermənistan Respublikasının ölkəmizə təcavüzü nəticəsində respublikamızın sosial-iqtisadi inkişaf potensialına güclü zərbə vurulmuşdur. Belə ki, müharibə

zonası rayonlarında təsərrüfat fəaliyyəti dayandırılmış və sosial infrastruktur tamam dağılmışdır. Belə bir vəziyyət, kənd yerlərində daha aydın şəkildə görünür. Bu da investisiya qoyuluşlarına olan tələbatın artmasına səbəb olur.

İ.Cəfərov «Azərbaycan Respublikasının Konstitusiyasının şərhi» adlı kitabında bu müddəa ilə bağlı qeyd edir ki, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək müddəası sosial dövlətə aid olan cəhətləri özündə əks etdirir. Bu müddəa ilə, Azərbaycan dövlətinin başlıca vəzifələrindən biri kimi, ölkənin sosial sahədə siyasətini müəyyən etmək, əhalinin rifahının günü-gündən yaxşılaşdırılmasına yönəldilən tədbirlər həyata keçirmək əhatə olunmuşdur (2, 177-178).

Tanınmış hüquqşünas alim Z.Əsgərovun redaktəsi ilə nəşr olunmuş «Konstitsusiya hüququ» adlı dərslikdə qeyd olunur ki, konstitusiyanın ən mühüm funksiyalarından biri məhz sosial funksiyadır. Konstitusiya sosial sistemin başlıca ünsürlərini bir-birilə əlaqələndirir və onlara hüquq çərçivəsində davranış imkanı verir və onları təşkilatlandırır. Konstitusiya sosial sistemin sabitliyini təmin edir və onun inkişafının ümumi əsaslarını müəyyən edir (3, 276).

Konstitusiyanın 15-ci maddəsinin I hissəsində qeyd olunur: «Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir». Sosial siyasətin mühümlüyü hər bir zaman Azərbaycan dövləti üçün prioritet məsələ olmüşdür. 18 mart 2009- cu ildə Azərbaycan Respublikasında Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi məqsədilə referendum keçirildi. Referenduma çıxarılan məsələlərə nəzər salsaq əhalinin sosial vəziyyətinə birbaşa təsir edən normaların əlavə olunduğunu aydın görərik. Belə ki, Konstitusiyanın referendumdan əvvəl olan variantına nəzər salsaq görərik ki, 15-ci maddəyə «sosialyönümlü» sözü əlavə olunmuşdur. Referendumdan sonrakı varianta müvafiq olaraq 15-ci maddənin II hissəsi belə qeyd olunur: «Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilmir». Bu maddədə əsasən Azərbaycan Respublikasının iqtisadi əsaslarının başlıca əlamətləri ehtiva olunmuşdur. Bu maddəyə diqqətlə yanaşsaq görərik ki, istifadə olunmuş «xalqın rifahının yüksəldilməsi», «azad sahibkarlıq», «inhisarçılığın qarşısının alınması» və «haqsız rəqabət» anlayışları məhz Azərbaycan dövlətinin investisiya siyasətinin ən mühüm istiqamətləridir.

Konstitusiyanın 16-cı maddəsi də investisiya fəaliyyətinə birbaşa təsir edən maddədir. Belə ki, bu maddəyə əsasən Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Azərbaycan dövləti mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur. Bu maddədə Azərbaycanın dövlətinin sosial sahədə əsas vəzifələri əks olunmuşdur: xalqın rifahını yüksəltmək, onun sosial müdafiəsinin, layiqli həyat səviyyəsinin qayğısına qalmaq. Maddədə

istifadə olunan «layiqli həyat» sözləri hər şeydən əvvəl cəmiyyətin müasir inkişaf standartları səviyyəsində hər kəsin maddi təminatını, mədəni sərvətlərdən istifadə etməsi imkanlarını, şəxsi təhlükəsizliyini nəzərdə tutur.

Dövlətin sosial təyinatı Konstitusiya quruluşunun digər əsasları ilə sıx surətdə bağlıdır. Dövlət hakimiyyəti onun sosial təyinatı nəzərə alınmaqla təşkil edilməli və fəaliyyət göstərilməlidir. İnkişaf etmiş dövlətlərin hüquq sistemi hüquqi dövlətin mühüm xüsusiyyətlərindən biri kimi vətəndaşların sosial hüquqların müdafiəsini və təminatını müəyyən edən normativ hüquqi aktları hökmən özündə əks etdirilməlidir. Konstitusion nizamasalmanın sosial münasibətləri maksimum geniş əhatə etmək siyasəti - sosial dəyişikliklərin və nailiyyətlərin yekunlarırın təsbit olunması, dövlətin sosial inkişaf sferalarında fəaliyyətinin əsas məqsədlərinin müəyyən olunması kimi metodlarının yaranmasını şərtləndirir.

Sosial dəyişikliklərin yekunlarının Konstitusiyada təsbit olunması özü-özlüyündə yeni sosial münasibətlərin möhkəmləndirilməsi, onların normativ qaydada rəsmiləşdirilməsi üçün müsbət əhəmiyyətə malikdir. Bu o hallarda zəruri olur ki, sosial-iqtisadi münasibətlərin sürətli inkişafı onun qanunvericiliklə, xüsusən ali normativ hüquqi akt - Konstitusiya tərəfindən nizamasalınmasını xeyli qabaqlayır və mövcud hüquqi nizamasalma metodları yeni münasibətlərin inkişafına əngəl törədir.

Lakin qətiyyətlə qeyd etmək lazımdır ki, Konstitusiya yalnız əldə olunan nailiyyətlər haqqında məlumatları əks etdirən proqram sənədi olmamalıdır. Pozner R.O haqlı olaraq qeyd edirdi ki, Konstitusiyanın vəzifəsi real ictimai münasibətləri nizama salmaq, konkret tarixi şəraitdə həyat və inkişafın hüquqi əsasını təşkil etməkdir. Konstitusiya - Əsas qanundur, buna görə də o, proqram xarakterli deyil, sırf hüquqi olmalıdır (5, 320).

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. 1995, 67 s.
2. İ.Cəfərov. Azərbaycan Respublikasının Konstitusiyasının Şərhi. Bakı: 2004, 552 s.
3. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərs vəsaiti. Bakı: BDU, 2002, 632 s.
4. Gözəlov Ə.V. Beynəlxalq (xarici) investisiya fəaliyyətinin hüquqi tənzimlənməsinin tarixi aspekti / Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. XV buraxılış. Bakı: Adiloğlu, 2006, s. 378-381
5. Познер Р.О О применении экономической теории злоупотребления при анализе права. Истоки, Вып. 5. М.: ГУ-ВШЭ, 2004, с. 312-348
6. Landes W., Posner R. The Positive Economic Theory of Tort Law. In: Posner R., Parisi F. Law and Economics, Vol. II, Elgar Reference Collection, 1997, pp. 259 – 332

## КОНСТИТУЦИОННО-ПРАВОВЫЕ ГАРАНТИИ ИНВЕСТИЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ

**Ф.М.МАГЕРРАМОВ**

### РЕЗЮМЕ

Соотношение права и экономики заключается в сложной системе взаимосвязей и взаимодействия. Как мы знаем, право воздействует на самые различные сферы жизнедеятельности общества, государства и человека, в том числе и на экономику. С другой стороны, право возникло, развивается и функционирует в результате комплекса факторов, и экономика лишь один из них. Экономические и правовые отношения взаимозависимы. Хотя экономические отношения и развиваются, прежде всего, по собственным законам, но при этом, с одной стороны, многие из них регулируются нормами права, становясь правовыми отношениями, но, не утрачивая при этом своей экономической сути, с другой стороны, экономические отношения оказывают существенное воздействие на всю систему права. Экономический или правовой детерминизм ведут к возникновению экономических или политических проблем.

Механизм конституционно-правового регулирования экономической системы формируется под влиянием следующих факторов: менталитет народа и духовные традиции общества; конституционные цели; исторический опыт конституционного регулирования; сложившееся соотношение частных и публичных интересов; модель и структура экономики; влияние иностранного опыта.

**Ключевые слова:** инвестиция, политика, государство, конституция, экономика

## CONSTITUTIONAL-LEGAL WARRANTIES OF THE INVESTMENT ACTIVITY

**F.M.MAHARRAMOV**

### SUMMARY

The relationship between law and economy is based on the interactive and collaborative systems. As we know, law influences all aspects of the society, state and people as well as economy. On the other hand, law formed, developed and functions as a result of social factors, whereas economy is one of them. The legal and economic relations are interactive. Although economic relations develop in accordance with their own law they are guided by legal acts and regulations.

There are a lot of factors of the constitutional-legal regulation of the economic system: morality of the nation, traditions, historical practice of constitutional regulations, model and structure of economy etc.

**Key words:** investment, policy, government, constitution, economy